MPRA
Munich Personal RePEc Archive

# Assessment of the Economic Potential of the Azerbaijan–Uzbekistan Investment Fund

Niftiyev, Ibrahim

Azerbaijan State University of Economics (UNEC)

4 March 2024

Online at https://mpra.ub.uni-muenchen.de/120699/
MPRA Paper No. 120699, posted 20 Aug 2024 11:33 UTC

İPƏK YOLU, No.1, 2024, səh.105-118
https://doi.org/10.30546/1810-911X.2024.1.105

# AZƏRBAYCAN-ÖZBƏKİSTAN İNVESTİSİYA FONDUNUN İQTİSADİ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**İbrahim Niftiyev**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
e-mail: ibrahim.niftiyev@unec.edu.az

**Xülasə.** Məqalədə Azərbaycan-Özbəkistan investisiya fondunun iqtisadi potensialı qiymətləndirililir, fondun potensialının ikitərəfli münasibətlərə verə biləcəyi tövhələr təhlil edilir, yaxın gələcəkdə daha səmərəli fəaliyyəti üçün təkliflər verilir.

**Açar sözlər:** Azərbaycan, investisiya fondu, iqtisadi əməkdaşlıq, Özbəkistan.

## ASSESSMENT OF THE ECONOMIC POTENTIAL OF THE AZERBAIJAN-UZBEKISTAN INVESTMENT FUND

**Ibrahim Niftiyev**
*Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan*

**Abstract.** The article assesses the economic potential of the Azerbaijan-Uzbekistan investment fund, analyzes the potential contributions of the fund to bilateral relations, and offers suggestions for more efficient activities in the near future.
**Keywords:** Azerbaijan, Uzbekistan, economic cooperation, investment fund.

## ОЦЕНКА ЭКОНОМИЧЕСКОГО ПОТЕНЦИАЛА АЗЕРБАЙДЖАНО-УЗБЕКИСТАНСКОГО ИНВЕСТИЦИОННОГО ФОНДА

**Ибрагим Нифтиев**
*Азербайджанский Государственный Экономический Университет (UNEC), Баку, Азербайджан*

**Резюме.** В статье оценивается экономический потенциал Азербайджано-Узбекистанского инвестиционного фонда, анализируется потенциальный вклад фонда в двусторонние отношения, а также предлагаются предложения по более эффективной деятельности в ближайшем будущем.
**Ключевые слова:** Азербайджан, Узбекистан, инвестиционный фонд, экономическое сотрудничество.

## 1. Giriş

Müstəqillik sonrası dövrdə Azərbaycan və Özbəkistan arasında rəsmi siyasi və diplomatik əlaqələr 1995-ci ildən qurulsa da, münasibətlərin yeni mərhələsi 2022-ci ilə təsadüf edir, çünki hər iki ölkə arasında iqtisadi və siyasi əməkdaşlıq məhz həmin ildə olduqca yüksək artım templərinə nail olub [2]. Azərbaycan Dövlət Statistika Komitəsinin açıqladığı göstəricilərə əsasən, 2021-ci il ilə müqayisədə 2022-ci ildə Özbəksitandan Azərbaycana idxal 74.5%, Azərbaycandan Özbəkistana ixrac isə 38.7% artım göstərib [4]. Özbəkistan Azərbaycana nəqliyyat vasitələri, əlvan metallar, elektrik və mexaniki avadanlıqlar, müxtəlif optik cihazlar, kənd təsərrüfatı məhsulları ixrac edir, eləcə də nəqliyyat, turizm və digər xidmətlər sahəsində əməkdaşlıq edir. Azərbaycan Özbəkistana, əsasən, mexaniki avadanlıqlar, dərmanlar, plastik məmulatlar, şəkər və qənnadı məmulatları, müxtəlif kimyəvi birləşmələr, dəri boyası ekstraktları ixrac edir [6]. Son illərdə iki ölkə arasında səyahətlərin sayında da artım müşahidə olunur. Viza rejimində sadələşdirmələrdən sonra Özbəkistandan Azərbaycana gələn

turistlərin sayı 2022-ci ildə 2019-cu ilə nisbətdə 11.9%, 2015-ci ilə nisbətdə isə 75.2% daha çox olub [3].

Azərbaycan Respublikası prezidentinin təkcə 2022-ci ildə üç dəfə Özbəkistana səfər etməsi, Özbəkistan prezidentinin isə İkinci Qarabağ müharibəsindən sonra, daha dəqiq, 2021-ci ilin mart ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə görüşündə Azərbaycanı qələbə münasibətilə təbrik etməsi, iki ölkənin bir-birinə olan yüksək marağının təzahürüdür [2]. Avrasiyada Cənubi Qafqaz və Mərkəzi Asiyanın aktiv iştirakı ilə, Çin və Avropa arasında nəhəng nəqliyyat və logistika layihələrinin stimulu sayəsində yeni geosiyasi trendlər formalaşır ki, Azərbaycan və Özbəkistan, Türkiyə üçün də olduqca vacib strateji tərəfdaşlara çevrilib [11]. Mövcud dinamika Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq və iqtisadi inteqrasiyanın başladığını göstərir. Lakin inteqrasiya öz-özlüyündə hədəf deyil və texnoloji müasirləşmə, eləcə də ixrac əsaslı iqtisadi inkişafa aparan vasitələrdən birinə çevrilməlidir [23]. Azərbaycan və Özbəkistan arasında hal-hazırkı müsbət iqtisadi əməkdaşlıq dinamikası hər iki ölkə üçün vacib nailiyyət olsa da, milli iqtisadiyyatlarda institusional islahatların aparılması və yaxın gələcək üçün daha müasir siyasət tədbirlərinin icrası vacibdir. Bu zəmində Azərbaycan-Özbəkistan Birgə İnvestisiya Fondunun (bundan sonra sadəcə “fond” - müəllif) yeni yanaşma və potensialı yüksək iqtisadi əməkdaşlıq aləti ola bilər.

Fonda, eləcə də digər Mərkəzi Asiya ölkələrinə edilən investisiyalar Azərbaycanın bu istiqamətdə donor və inisiator qismində atdığı ilk addımdır. Fondun hüquqi bazasını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 may 2023-cü il tarixli “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında” Sazişin təsdiq edilməsi barədə qanunu (№ 870-VIQ) təşkil edir. Fondda 75%-lik hissə Azərbaycana, 25%-lik paya isə Özbəkistan sahiblik edəcək. Fondun əsas fəaliyyət istiqamətlərinə Azərbaycan və Özbəkistanda qarşılıqlı maraq doğuran layihələrə maliyyə dəstəyinin (qiymətli kağız buraxılışı, birbaşa investisiyalar, yaxud da kreditlərin ayrılmasın formasında) edilməsi, beynəlxalq investisiya və maliyyə institutları ilə əməkdaşlıq, eləcə də fonda yeni yerli və xarici investorların cəlbi, maliyyə menecmenti, gələcəkdə isə, üçüncü ölkələrlə müştərək layihələrin işlənib-hazırlanması daxildir [1]. Birgə Hökümətlərarası Komissiyanın qiymətləndirmələrinə əsasən, Azərbaycanda işğaldan azad edilmiş ərazilər və getdikcə artan sənaye zonaları Özbəkistan üçün əlverişli və gəlirli investisiyalar üçün cəlbedicidir [21]. Ələt Azad İqtisadi Zonası bu baxımdan Özbəkistanın biznes subyektləri üçün diqqət mərkəzindədir [13]. Özbəkistanda da xarici investorlar və bizneslər üçün olduqca əlverişli mühit yaradılıb. Özbəkistan kifayət qədər iri istehlakçı bazarı, əlverişli coğrafi mövqeyi və təbii sərvətləri ilə Azərbaycanın marağında olan vacib ticarət tərəfdaşlarındandır. Qeyd olunan ikitərəfli iqtisadi perspektivlər və geosiyasi uzlaşmaların fövqündə, həm Azərbaycan-Özbəkistan iqtisadiyyatlarının müqayisəli qiymətləndirilməsi, həm də fondun fəaliyyətinin təhlil edilməsi yüksək aktuallıq qazanıb.

Cari tədqiqatın məqsədi Azərbaycan və Özbəkistan iqtisadiyyatlarının müqayisəli təhlili fonunda qurulacaq fondun perspektivi, onda Azərbaycan Respublikasının maraqlarını və ikitərəfli münasibətlərə verə biləcəyi tövhəni araşdırmaqdır. Bunun üçün üç əsas tədqiqat sualı əsas götürülür: Azərbaycan ilə Özbəkistan arasında (500 milyon ABŞ dolları həcmində nizamnamə kapitalı ilə) yaradılan Birgə İnvestisiya Fondunun perspektivi nələrdir? Fondun yaradılmasında Azərbaycan Respublikasının maraqları nələrdir? Fond ikitərəfli əməkdaşlığa hansı tövhələr vermək potensialına malikdir? Suallara cavab vermək üçün statistik göstəricilər, dövri mətbut materialları və müəllifin şəxsi ekspert mövqeyi sintez edilib. Nəzərə alsaq ki, Azərbaycan və Özbəkistan arasında son bir neçə ildə həm ikitərəfli, həm də Türk Dövlətləri Birliyi (TDT) təşkilatı çərçivəsində inteqrasiyaedici əməkdaşlıq intensivləşib, hər iki ölkənin qarşılıqlı münasibətlərinin sistemli iqtisadi-siyasi təhlili bu mövzuda müəyyən tədqiqat boşluqlarını doldurmaq iqtidarındadır.

## 2. Azərbaycan və Özbəkistan iqtisadiyyatlarının müqayisəli təhlili və iqtisadi profili

Azərbaycan və Özbəkistan arasında fondun yaradılması bilavasitə hər iki ölkənin yaxın keçmişdəki iqtisadi dinamikası, mövcud reallıqları və potensialı ilə əlaqləndirilməlidir. Başqa sözlə, hər iki ölkənin bu əməkdaşlıqdan əldə edəcəyi tövhə yaxın keçmişdəki gördüyü işlər və yaxın gələcək üçün proqnozlarla düz mütənasib formada əlaqəli olacaqdır. Bu baxımdan, hər iki ölkənin müqayisəli formada əsas makroiqtisadi göstəricilərinin qısaca müqayisəsi bu istiqamətdəki təhlilin ilkin mərhələsini əmələ gətirir. Qrafik 1, a panelinə nəzər yetirsək, Azərbaycan və Özbəkistanın həm ümumi daxili məhsul (ÜDM), həm də adambaşına düşən ÜDM-ini 1990–2022-ci il aralığı üçün zaman sıraları formasında görmək mümkündür. Bu yanaşma həm yaxın tarixdəki bir-birinə paralel trendləri görmək, həm də cari vəziyyətin qiymətləndirilməsi üçün olduqca əhəmiyyətlidir, çünki ÜDM qısa müddət ərzində bir ölkənin iqtisadi inkişaf və artımını başa düşmək üçün ən vacib konseptual alətlərdən hesab edilir.

Hər iki ölkə 1991-ci ildən etibarən siyasi müstəqillik əldə etmiş və 1990-cı illərin ilk dövründə müəyyən iqtisadi tənəzzül yaşamışdır. Bu tənəzzül Azərbaycan nümunəsində daha kəskin hiss edilsə də, 2005-ci ildən etibarən Azərbaycanın ÜDM-i Özbəkistanı üstələyərək iki ölkə arasındakı maksimum fərqə 2008-ci ildə (təqribən 50 milyard ABŞ dolları) nail olub. Başa düşüləndir ki, Azərbaycan həmin illərdə neft bumu dövrünü yaşayıb və xam neftin kifayət qədər qısa müddət ərzində ixracından olduqca yüksək gəlirlər əldə edib. Özbəkistan iqtisadiyyatında da oxşar vəziyyət olub və belə ki, təbii qazın ixracı ölkə üçün olduqca gəlirli olub. Lakin maraqlı burasıdır ki, Özbəkistan iqtisadiyyatı 2017-ci ilədək olduqca nəzərəçarpan iqtisadi artım tempi göstərib. Həmin ildən etibarən hər iki ölkə bir-biri ilə daha oxşar iqtisadi trendlərə malikdir.

Lakin adambaşına düşən ÜDM-ə görə Azərbaycan Özbəkistanı əhəmiyyətli dərəcədə üstələyir, çünki Özbəkistan ümumi əhalisi Azərbaycandan bir neçə dəfə çoxdur (Qrafik 1b). 1990-ci ildə Özbəkistanın 20.5 milyon nəfər əhalisi var idisə, bu rəqəm 2010-cu ildə bu göstərici 28.6 milyon nəfərə çatdı və 2022-ci ildə isə 35.6 milyon nəfər oldu [9]. Azərbaycan

əhalisi isə 2000-ci ildə təxminən 8 milyon idisə, 2022-ci ildə 10.2 milyon nəfərdir [8]. Bu baxımdan Qrafik 2b Azərbaycanın adambaşına düşən ÜDM-də Özbəksitandan qat-qat daha yüksək mövqedə olduğunu əks etdirir.

*a. Azərbaycan və Özbəkistanın ÜDM-i, cari qiymətlərlə, milyard ABŞ dolları*




*b. Azərbaycan və Özbəkistanın adambaşına düşən ÜDM-i, cari qiymətlərlə, ABŞ dolları*




**Qrafik 1.** Azərbaycan və Özbəkistan iqtisadiyyatlarına ilkin baxış
**Mənbə:** Dünya bankı

Azərbaycan və Özbəkistan iqtisadiyyatlarını bir-biri ilə oxşar edən xüsusiyyətlərdən birisi də hər iki ölkənin əlavə dəyər istehsalında təbii sərvətlərin yüksək rola sahib olmasıdır (ən azından 2015-ci ilə qədərki dövrdə). Belə ki, Qrafik 2-də təsvir edildiyi kimi həm Azərbaycan, həm də Özbəkistan öz iqtisadi inkişaflarının kəskin artım illərində (məsələn, 2006-cı ildən başlayaraq), neft və təbii qazın ÜDM-dəki yüksək rolu, məsələn, Azərbaycan nümunəsində 2006–2010-cu illər araısnda 35% neft rentası, Özbəkistan nümunəsində isə eyni dövr ərzində 14%-lik təbii qaz rentasını müşahidə etmək mümkündür. Həm neft, həm də təbii qaz tükənən və bərpa olunmayan olub, hasilat sənayesinin məhsuludur və beynəlxalq amillərdən daha çox asılıdır. Əlavə olaraq, Özbəkistanda və Azərbaycanda həm neft, həm də təbii qaz rentası 2011-ci ildən etibarən iqtisadiyyatda öz rolunu azaldıb, lakin təbii qaz rentası Azərbaycanda öz payını artırmaq istiqamətindədir, eləcə də Özbəkistanda da orta hesabla 6%-lik paya sahib olmağa davam edir.

Məcmu resurs rentası Azərbaycan iqtisadiyyatında daha çox paya sahib olsa da, Özbəkistanda bu bir qədər azdır ki, bu da emaledici sənayenin 2010-cu ildən etibarən yüksələn xəttlə artdığına dəlalət edir (bax Qrafik 3, *a* və *b*). Azərbaycanda isə emaledici sənayenin mövqeyi 2005–06-cı illərdən sonra azalıb, amma Özbəkistanda isə öz tarixi pik həddinə, yəni 25%-ə 2021-ci ildə çatıb. Emaledici sənaye xarici ticarəti dəstəkləyən və ölkədə rifah yaradan ən əsas sektorlardan sayılır və birmənalı olaraq uzunmüddətli dövrdə dayanıqlı inkişafın əsasını əmələ gətirir. Bu baxımdan, bu fakt Azərbaycanın Özbəkistanla əməkşdalığında vacib rol oynaya bilər. Hər iki ölkə qarşılıqlı ticarət vasitəsi ilə yerli istehsalın təşviqini və xarici

bazarlarda marketinq təcrübəsini formalaşdırmaq üçün fond vasitəsilə yaxşı fürsət əldə etmiş olurlar.




**Qrafik 2.** Neft və təbii qaz rentasının Azərbaycan və Mərkəzi Asiya ölkələri iqtisadiyyatında (ÜDM-də) rolu, % ilə
**Mənbə:** Dünya Bankı




**Qrafik 3.** Təbii sərvətlər rentası və emaledici sənayenin Azərbayca və Özbəkistan iqtisadiyyatındakı payı
**Mənbə:** Dünya Bankı

Azərbaycan və Özbəkistan iqtisadiyyatlarındakı müxtəlif fərqli (məsələn, adambaşına düşən ÜDM, emaledici sənaye) və oxşar (məsələn, təbii sərvətlərin iqtisadiyyatdakı rolu, ticarət açıqlığı) cəhətlərə rəğmən, dinamika və tsikl baxımından hər iki ölkə bir-birinə oxşardır. Kiçik hesablama ilə, daha dəqiq korrelyasiya əmsalı ilə Özbəksitanın ÜDM-inin Qazaxıstandan sonra, 0.74 dəyərilə Azərbaycana ikinci oxşar ÜDM olduğunu görə bilərik (bax Qrafik 4*a*). Bu da, Mərkəzi Asiyada Özbəkistanı Azərbaycan üçün, Cənubi Qafqazda isə Azərbaycanı Özbəkistan üçün təbii ticarət tərəfdaşına çevriməkdə mühüm rol oynayır.

Maraqlıdır ki, Azərbaycan və Özbəkistan arasında xarici ticarət əlaqələri bəzi illərdə kəskin sıçrayış göstərib və mümkün potensialı dəfələrlə üstələyib. Məsələn, Özbəkistandan faktiki idxal və ixrac 2005, 2011, 2010, 2021 və 2022-ci illərdə potensial idxaldan yüksək olub (trend xəttindən böyük dəyərlərin timsalında, bax Qrafik 4*b*). Azərbaycan Özbəkistana əsasən

yanacaq, kimya və dərman sənayesi məhsulları, Özbəkistan isə Azərbaycana taxıl, buğda, maşınqayırma və elektrik cihazları məhsulları ixrac edib. Ümumiyyətlə, 2015–2022-ci illər arasında hər iki ölkə arasındakı ticarət əlaqələri artan xəttlə inkişaf edib, lakin 2015-ci ilə qədər dinamika volatildir.

*a. Azərbaycan və Mərkəzi Asiya Türk dövlətləri ilə oxşarlıq əmsalı, ÜDM-in korrelyasiya təhlili əsasında*

*b. Azərbaycanın Özbəkistana ixrac və idxal dinamikası, milyon ABŞ dolları ekvivalentində, trend xəttləri (qırıq-qırıq) ilə birgə*




**Qrafik 4.** Azərbayca və Özbəkistan arasında iqtisadi oxşarlıq və xarici ticarət dinamikası
**Mənbə:** Dünya Bankı; Azərbaycan Dövlət Statistika Komitəsi

## 3. Azərbaycan-Özbəksitan Birgə İnvestisiya Fondunun perspektivlərinin qiymətləndirilməsi

### *3.1. Hüquqi baza*

Fondun hər iki ölkə üçün perspektivinin qiymətləndirilməsi onun hüquqi bazası, iqtisadi əsaslandırması və sürətlənən yeni geosiyasi amillərlə əlaqələndirilə bilər. Sxem 1-də təsvir olunduğu kimi, Azərbaycan və Özbəkistan hökümətləri hələ 1996-cı ildə "Sərmayelərin Qarşılıqlı Təşviqi və Mühafizəsi Haqqında" Sazişi imzalayaraq diplomatik və siyasi əlaqələri həm də iqtisadi müstəvidə (ələlxüsus investisiya və sərmayelər nöqteyi-nəzərdən) realizə ediblər. Lakin sırf investisiyalar, eləcə də birgə iqtisadi fəaliyyətlə bağlı əlaqələrin növbəti hüquqi bazası 2022 və 2023-cü illərdə təkmilləşdirilib (bax Sxem 1). Müşahidə əsaslı ümumi təəssüratlar fondun hüquqi bazasının dinamik templərlə inkişaf etdiyinə işarə edir. İnkişaf etməkdə olan iki ölkə arasında hökumətlərarası investisiya fondu üçün yaxşı hazırlanmış hüquqi bazanın yaradılması bir sıra üstünlükləri təmin edir. Birincisi, o, şəffaflığı artıra və anlaşılmazlıqları minimuma endirə bilər və hər bir ölkənin rollarını, məsuliyyətlərini və gözləntilərini əks etdirən əməkdaşlıq üçün aydın çərçivə təqdim edə bilər. İkincisi, güclü hüquqi baza sabit və proqnozlaşdırıla bilən investisiya mühitini nümayiş etdirməklə daha çox beynəlxalq investorları cəlb edə bilər. Bundan əlavə, o, səmərəli qərar qəbuletmə proseslərini və mübahisələrin həlli mexanizmlərini təmin edərək investorların inamını artıra bilər. Belə hüquqi baza həmçinin bilik və texnologiya transferini asanlaşdıra, potensialın yaradılmasını və

iqtisadi inkişafı təşviq edə bilər. Nəhayət, iki ölkə arasında diplomatik əlaqələri və siyasi əməkdaşlığı gücləndirə, iqtisadi məsələlərdən kənarda daha geniş əməkdaşlıq üçün platforma yarada bilər.




**Sxem 1.** Azərbaycan və Özbəkistan arasındakı qarşılıqlı iqtisadi əlaqələrə dair hüquqi bazanın təkamülü
**Mənbə:** "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

### *3.1. Fondun iqtisadi perspektivləri və ikitərəfli əməkdaşlıqlara töhvə potensialı*

Olduqca qısa müddət ərzində Azərbaycan və Özbəkistan arasında artan iqtisadi və diplomatik əlaqələr hansı konkret iqtisadi əməkdaşlıqlara gətirib çıxaracaq və ən əsası fondun bu istiqamətdə rolu necə olacaq? Hökümətlərarası Komissiya üzvləri Özbəkistan şirkətlərini ticarət, maliyyə, sahibkarlıq, Araz Vadisi İqtisadi Zonası Sənaye Parkı, Ağdam Sənaye Parkı və Ələt Azad İqtisadi Zonası daxilindəki fəaliyyətlərə, rəqəmsal iqtisadi sistem tərəfdaşlıqlarına cəlb etmək üçün yaxşı potensialın olduğunu vurğulayıblar [16]. Özbəkistan mediasında parlamentlərarası əməkdaşlığın, ticarət dövriyyəsinin və enerji sahəsində müştərək layihələrin uğurlu icrasına dair səsləndirilən fikirlər, eləcə də kənd təsərrüfatı, pambıq, ipək və maşınqayırma sahələrində gözlənilən əməkdaşlıqlar, fondun da məhz adıçəkilən istiqamətlərdə daha aktiv rol oynayacağına dair ilkin təəssüratları formalaşdırır [7]. Fondun fəaliyyətlərinin inkişaf trayektoriyasına dair müzakirələrdə digər Orta Asiya ölkələri ilə yaxın gələcəkdə neft və qaz, toxuculuq və kimya sənayesi, kənd təsərrüfatı kimi sahələrdə sıx əməkdaşlıq etmək barədə razılığa gəliblər [18].

Fondun tərəflər üçün təqdim edə biləcəyi iqtisadi perspektivləri bir neçə prizmadan qiymətləndirmək mümkündür. Heritec Fondunun hazırladığı illik Biznes Azadlığı İndeksi və onun komponentləri bu baxımdan ilkin təəssüratların formalaşdırılmasında faydalıdır, çünki baş verən investisiya aktivliyi birbaşa biznes aktivliyi ilə əlaqədardır. Məsələn, 2023-cü il üçün olan qiymətləndirmələrdə investisiya azadlığı komponentində Özbəkistan 100 mümkün xaldan 60, Azərbaycan isə 70 əldə edib. Qeyd olunan göstərici 2019-cu il üçün Özbəkistanda olduqca aşağı, 10 olub, lakin Azərbaycanda 55 olub. Dünya üzrə orta göstərici 2023-cü ilə 57.3-dür (Heritage.org). Oxşar olaraq, ticarət azadlığı 2023-cü ildə Özbəkistanda 76, Azərbaycanda isə 68.6 ilə qiymətləndirilib. Halbuki, nəzərə almaq lazımdır ki, ticarət azadlığı Azərbaycanda 2020-ci ildə 74.6, Özbəkistanda isə 67.6 olub. Başqa sözlə, müvafiq göstərici Azərbaycanda azalma, Özbəksitanda isə artım sərgiləyib.

Fond hər iki ölkənin həm bir-birinə birbaşa, həm də üçüncü tərəflərin hər iki ölkəyə investisiyalarını artırmağı hədəfləyir. İnvestisiyalar vasitəsi ilə yeni iş yerləri, daha çox istehsal buraxılışı və xarici ticarətdə artıma səbəb ola bilər. Nəzərə alsaq ki, Azərbaycan öz qeyri-neft sənaye istehsalının inkişafını bu məsələdə daha təcrübəli ölkə olan Özbəkistan vasitəsi ilə icra edə bilər, bu həm də daha ucuz yerli istehsal ilə getdikcə şiddətlənən inflyasiyanın qarşısının alınmasında da perspektivlidir. Yəni fond hər iki ölkənin xarici investisiyalara olan cəzbediciliyinin artırılması və iqtisadiyyatın real sektorunda artım templərini yüksəltmək üçün ilkin potensiala malikdir. Bu onu göstərir ki, fondun fəaliyyəti milli inkişaf məqsədlərinə töhvə verməklə, ölkənin infrastrukturunun inkişafı və iqtisadi artım kimi strateji prioritetləri ilə uzlaşdırıla bilər.

Fondun gələcək iqtisadi fəaliyyətlərini stimullaşdırmaq məqsədi ilə, qanunvericiliyin 7-ci maddəsində qeyd edilir: "Fondun gəlirləri, əmlakı və digər aktivləri, habelə bu Sazişə uyğun olaraq apardığı əməliyyatlar və bağladığı əqdlər, Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bütün vergilərdən, o cümlədən gəlir vergisindən, yığımlardan, rüsumlardan və büdcəyə digər icbari ödənişlərdən azaddır". Fonda vergi güzəştlərinin təklif edilməsi dəstəkləyici və sərmayədarlar üçün əlverişli mühitdən xəbər verir ki, bu da ölkənin investisiya məkanı kimi nüfuzunu artırır. İnvestorlar vergi qənaəti hesabına investisiyalarından daha yüksək xalis gəlir əldə edə bilər ki, bu da fondu digər investisiya variantları ilə müqayisədə daha cəlbedici və rəqabətli edir. Vergilərə qənaət və artan fond həcmi daha qısa müddətdə daha çox investisiya cəlb etməklə fondun böyüməsini sürətləndirə bilər və bu, resursların iqtisadi layihələrə daha tez yerləşdirilməsinə imkan verir. Əlavə olaraq, fondun həm Azərbaycanda, həm də Özbəkistanda azad ticarət və biznes quruculuğu istiqamətdində atılmış addım olduğunu qeyd etmək mümkündür.

Nəzərə alsaq ki, fondun əsas nəticələrdən biri də xarici ticarət həcmlərində artıma nail olmaq olacaq, onun təmin edə biləcəyi iqtisadi perpektivlərdən biri də qarşılıqlı olaraq milli valyutalardan istifadə edə bilmək imkanının yaradılması ola bilər. TDT çərçivəsində, müəyyən etalon valyutaların istifadəsi, onların kliring xidmət mərkəzlərinin qurulması xarici sövdələşmələrdə monetar suverenleyi təmin edə bilmək üçün zəmin yarada bilər və planlaşdırılan iqtisadi inteqrasiyanı dəstəkləyə bilər. Bu təcrübə hal-hazırda sanksiyalar altında olan Rusiya nümunəsində istifadə edilir. Məsələn, ABŞ-ın sanksiyaları altında olmasına baxmayaraq, Rusiyanın Birbaşa İnvestisiya Fondu Çin, Cənubi Koreya, Hindistan, Yaponiya, Tayland və Vyetnamla uzunmüddətli strateji tərəfdaşlıqlar vasitəsilə 40 milyard ABŞ dollarından çox vəsait cəlb edib [15]. Buna baxmayaraq, istər nəzəriyyə, istərsə də keçmiş təcrübə göstərir ki, milli valyutaları beynəlmiləlləşdirmək istəyən ölkələr ilk növbədə maliyyə bazarlarının liberallaşdırılması, kapital hesabı əməliyyatlarının tənzimlənməsi və valyutalarının konvertasiya edilməsindən ibarət maliyyə islahatları da daxil olmaqla bir sıra ilkin şərtləri yerinə yetirməlidirlər [12]. Bu istiqamətdə Azərbaycan və Özbəkistanın icra etməli olduğu bir

çox iş vardır, lakin TDT çərçivəsində artıq mərkəzi banklar müzakirələr və layihələndirmələr prosesinə başlayıblar [17].

Fondun riskli yönləri də vardır. Məsələn, fond öz işinin təşkili zamanı investisiyaların ediləcəyi ölkələrin iqtisadiyyatlarını dərindən təhlil etməli, mümkün valyuta məzənnə siyasətlərindən doğa biləcək potensial itkilərini öncədən proqnozlaşdıra bilməli və dəyişə biləcək beynəlxalq beynəlxalq hüquqi tənzimləmələri və normativlərdən vaxtı-vaxtında ayaqlaşmalıdır. Bundan əlavə, fond renta axtarışı (ingiliscə, rent-seeking) kimi xoşagəlməz, ən əsası iqtisadi nöqteyi-nəzərdən qeyri-səmərəli və ədalətsiz nəticələrə səbəb ola bilər. Renta axtarışı müəssisənin və ya firmanın məhsuldarlığa real töhfəsi olmadan sərvət əldə etməyə çalışdıqda baş verən iqtisadi anlayışdır. Rent axtarışına misal olaraq şirkət qrantları, subsidiyalar və ya tarif qorunması üçün hökumətlərə olan lobbiçilik göstərilə bilər. Əgər hər iki ölkədə rəqabətli mühit inkişaf etdirilməsə və bazar mexanizmləri əsasında fondun təmin edəcəyi imkanlardan fayda təmin edilməsə, layiq olmadığı halda fondun imkanlarından yararlanacaq müəssisələr və ya firmalar yarana bilər. Belə neqativ halların qarşısını vaxtında almaqdan ötəri fond maksimum mümkün hesabatlılıq və şəffaflıq prinsipləri ilə fəaliyyət göstərməli, qeyri-hökümət təşkilatlarının onun idarəçiliyində iştirakını təmin etməlidir. Əlbəttə ki, fond yeni qurulub və onun müvafiq iqtisadiyyatlara tövhəsi yaxınmüddətli perspektivdə (1-3 il) daha aydın bilinəcək.

### *3.2. Fondun iqtisadi perspektivləri və ikitərəfli əməkdaşlıqlara tövhə potensialı*

İnvestisiya fondunun yaradılmasında Azərbaycanın maraqlarını dərindən başa düşmək üçün gərək Mərkəzi Asiya ölkələrinin öncəki ikitərəfli investisiya fondlarına dair təcrübəsinə diqqət yetirilsin, çünki qeyd edildiyi kimi, Azərbaycan bu istiqamətdə yeni addımlar atır və dünya təcrübəsi ilə ayaqlaşmağa çalışır. Məsələn, 2018-ci ildə Özbəkistanın Yenidənqurma və İnkişaf Fondu Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ADS Holdinqi ilə 1 milyard dollar dəyərində özəl kapital fondu yaratmaq üçün müqavilə imzalayıb [14]. Eləcə də, 2018-ci ilin əvvəlindən Özbəkistandan olan tərəfdaşlarla ikitərəfli danışıqlar aparmaq üçün indiyədək BƏƏ-dən 60-dan çox şirkətinin rəhbərlərinin Özbəkistana işgüzar səfərləri baş tutub [14]. Məhz artan qarşılıqlı intensiv iqtisadi əməkdaşlıq sayəsində ilkin mərhələdə Özbəkistanla BƏƏ arasında ticarət dövriyyəsinin həcmi 22,1% artaraq 82,4 milyon dollara çatıb. Eyni zamanda, BƏƏ-yə Özbəkistan məhsullarının ixracında 16,4-lik artım müşahidə olunub [14].

Özbəkistanın qonşu ölkəsi Qırğızıstanda birgə investisiya fondlarının qurulması baxımından ilkin təcrübələr formalaşır. 2015-ci ildə yaradılan Rusiya-Qırğızıstan İnkişaf Fondu da 1 milyard dollar maliyyə vəsaitinə malikdir və 2021-ci ilin yanvarına qədər Qırğızıstanda ümumilikdə 417 milyon dollar dəyərində 2798 layihənin maliyyələşdirilməsini təsdiqləyib [22].

Mahiyyət etibarı ilə Azərbaycanın Özbəkistandakı iqtisadi və siyasi maraqları Özbəkistanın iqtisadiyyatını liberallaşdırmaq və əlverişli biznes mühiti yaratmaq səylərindən irəli gələn artan ticarət, investisiya və diplomatik əməkdaşlıq potensialından qaynaqlanır. Bu, Azərbaycan üçün Özbəkistanın iqtisadi artımında və inkişafında dəyərli tərəfdaş kimi özünü

təsdiq etmək, eyni zamanda regionda özünün iqtisadi və geosiyasi mövqeyini gücləndirmək imkanı yaradır. Özbəkistan inkişaf etməkdə olan və iri istehlakçı bazarına malik ölkədir. Fondun bu istiqamətdə Azərbaycanda istehsal olunan məhsul və xidmətlər üçün yaxşı bazardır. Hər iki ölkə qiymətli resurslara malikdir. Azərbaycan neftlə zəngin ölkə kimi enerji sektorunu təklif edə bilər, Özbəkistan isə Mərkəzi Asiyada strateji mövqeyə malik olmaqla ticarət yollarına və regional bazarlara çıxış təmin edə bilər. Əməkdaşlıq qarşılıqlı faydalı resurs mübadiləsinə səbəb ola bilər.

Lakin burada əsas problem hər iki ölkənin rəqabətqabiliyyətli məhsul istehsalında ciddi irəliləyişlər əldə etməsindəki ləngimələrdir. İkitərəfli razılaşmalar ölkələr bir-biri ilə ticarət dövriyyəsini artıra bilər. Hətta bu tendensiya davamlı olsa belə (məsələn, 10 il ard-arda), yüksək əlavə dəyərli məhsul və xidmətləri inkişaf etmiş ölkələrin istehlakçı bazarlarına təqdim etmədən, real inkişafa nail olmaq müşkül məsələ ola bilər. Özbəksitanda emaledici sənayenin yüksək payı və rolu bu məsələdə bu ölkə üçün müəyyən ilkin şərtləri təmin etsə də, Azərbaycan üçün qeyri-neft emaledici odur ki, fondun potensialını bu yöndə fəaliyyət göstərəcək innovasiyatutumlu və müasir müəssisələrin inkişafına yönəltmək mümkündür.

Azərbaycan üçün Özbəkistanla daha dərin iqtisadi əməkdaşlıq ənənəvi ticarət tərəfdaşlarından asılılığı azaldaraq onun məhsul və xidmətləri üçün alternativ bazar təmin edə bilər. Hər iki ölkə iqtisadi artıma, iş yerlərinin yaradılmasına, texnologiyalar və təcrübə mübadiləsinə töhfə verərək artan ticarət və investisiyalardan faydalana bilər.

Azərbaycanın Özbəkistanla artan iqtisadi əməkdaşlığı geosiyasi maraqların da təmin edilməsi ilə nəticələnək. Məsələn, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan və Özbəkistan ümumi layihə dəyəri 700 milyon dollar təşkil edən beş layihəni icra etməkdədir ki, bu da Çin və Mərkəzi Asiya ölkələrinin Zəngəzur dəhlizinə yönəltmək baxımından olduqca əhəmiyyətlidir [5]. Özbəkistanın Nəqliyyat Nazirliyi yanında Nəqliyyat və Logistikanın İnkişafı Problemlərinin Öyrənilməsi Mərkəzinin direktoru Bekzod Xolmatov qeyd edib ki, Zəngəzur dəhlizi Özbəkistan üçün daha qısa müddətdə Avropa İttifaqı bazarlarına, o cümlədən Azərbaycana malların çatdırılması üçün perspektivlər açır [20]:

> *"Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin ildən ilə artdığını nəzərə alsaq, bu dəhlizin əhəmiyyəti və vacibliyi də artır, belə ki, bu dəhliz bu iki ölkə arasında quru yolu ilə məsafəni xeyli azaldacaq, yüklərin maya dəyərini aşağı salacaq, daşınmasına, xarici ticarət dövriyyəsinə müsbət təsir göstərəcək".* B. Xolmatov

Regional təhlükəsizlik, qarşılıqlı bilik mübadiləsi və artıq mövcud olan beynəlxalq ticarət və logistika infrastrukturunun potensialının artırılması Azərbaycanın maraqlarının yaradılmış fondla təmin edilməsi üçün şərait yaradır. Azərbaycan və Özbəkistan regional sabitlik və təhlükəsizlik sahəsində ümumi maraqları bölüşür. İqtisadi əməkdaşlıq etməklə onlar regional təşkilatlarda və ittifaqlarda mövqelərini gücləndirə bilərlər. Azərbaycan Özbəkistanın müxtəlif sektorlarda, o cümlədən kənd təsərrüfatı və texnologiya sahəsində əldə etdiyi

nailiyyətlərdən potensial olaraq faydalana bilər. Bu cür əməkdaşlıq bilik və texnologiyanın ötürülməsini asanlaşdıra bilər. Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizinin və bu dəhlizin bir hissəsi kimi Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının tam realizə edilməsi baxımından, fond Özbəkistanı Azərbaycan iqtisadiyyatı üçün ən dinamik tərəfdaşa çevirmək üçün kifayət qədər perspektivlidir [10].

## 4. Siyasət təklifləri

Kovid-19 pandemiyasından sonrakı iqtisadi bərpaolunma prosesinin özü ilə birgə gətirdiyi aktivlik, eləcə də İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi, Türkiyə-Azərbaycan strateji tərəfdaşlığının miqyasını genişləndirir [10]. Bu genişlənmə prosesində Mərkəzi Asiya ölkələri artıq Cənubi Qafqazda Azərbaycanı ən parlaq tərəfdaş kimi görürlər və Avropaya gedən yolda etibarlı tərəfdaş hesab edirlər. 2022-ci ilin fevral ayından, Rusiya ilə Ukrayna arasındakı yeni müharibədən sonra Avrasiyada ticarət dəhlizləri istiqamətlərini dəyişir [10]. Mahiyyət etibari ilə bu heç də sadə və tez zamanda baş verən proses deyil. Yeni formalaşacaq dəhlizlərdə və iqtisadi əməkdaşlıqlarda pay sahibi olmaq üçün yeni strateji əməkdaşlıqlar və əsaslı islahatlar aparılmalıdır. Azərbaycan və Özbəkistan arasında fondun yaradılması, çox qısa müddət ərzində real nəticələrin əldə edilməsi və gələcəyə dair birgə planların qurulması baş verən geosiyasi hadisələrin fonunda iki ölkəni bir-birinə yaxınlaşdırır. Bu həm də TDT təşkilatının da əhəmiyyətini artıraraq, üzv ölkələr arasındakı beynəlxalq koordinasiyanı yeni mərhələyə qaldırır.

Həm Azərbaycan, həm də Özbəkistan ortaq tarixi, milli və mədəni irsə malik olub, yaxın keçmişdə də ortaq taleni (məsələn, Sovet İttifaqı) bölüşüblər. Hər iki ölkənin iqtisadiyyatları bir-biri ilə oxşarlıq nümayiş etdirsə də, fərqli cəhətləri də var (məsələn, Özbəksitan iqtisadiyyatında emaledici sənayenin ÜDM-dəki 20% paya sahib olması) və fərqlərin fürsətlərə çevrilməsi, ikitərəfli inteqrasiyanın beynəlxalq əməkdaşlıqlarla dəstəklənməsi fond vasitəsi ilə icra edilə biləcək real imkanlar arasındadır. Bunun üçün zəruri dövlət dəstəyi və siyasi iradə var və artmaqdadır. Effektiv idarəçilik və keyfiyyətli bürokratiya üçün isə yaxın gələcəkdə işlərin görüləcəyinə dair müsbət siqnallar var. Fondun fəaliyyətinin daha da şəffaf və səmərəli olması üçün bəzi tədbirlərin görülməsi zəruridir. Məsələn, nəzərə alsaq ki, həm Azərbaycan, həm də Özbəksitan inkişaf etməkdə olan, resurslarla zəngin və postsovet ölkələrdir, güclü və inteqrasiya edilmiş idarəetmə çərçivəsi fondun fəaliyyətini inkişaf etdirmək üçün vacibdir. Fondun dəstəyi ilə bizneslərin daha liberal bazar şərtlərində fəaliyyət göstərməsi üçün öhdəliklər dəqiq bölüşdürülməli, dayanıqlı nəticələrin əldə edilməsi üçün renta axtarışı kimi opportunist halların qarşısı dərhal alınmalıdır. Vətəndaş cəmiyyətlərinin, yerli icmaların və özəl təşkilatların fondun fəaliyyətinə ictimai nəzarət mexanizmi kimi cəlb edilməsi potensialın gücləndirilməsinə xidmət edəcəkdir. Əlavə olaraq, fond menecerlərinin, inzibatçılarının və dövlət məmurlarının bacarıq və biliklərinin artırılması, onların investisiyaların idarə edilməsi və idarəetmə prinsipləri haqqında anlayışlarını təkmilləşdirilməsi yaxın gələcək üçün zəruri insan kapitalının da təmin edilməsi üçün əhəmiyyətlidir.

Fondun işinin təşkili ondan əldə ediləcək iqtisadi faydanı və təmin ediləcək beynəlxalq təsir imkanlarını müəyyənləşdirmək iqtidarındadır. Bu baxımdan investisiya layihələrini seçərkən ciddi lazımi araşdırma və təhlil prosesləri həyata keçirilməlidir. Potensial investisiyaları təkcə gözlənilən gəlirlərə əsaslanaraq deyil, həm də onların fondun uzunmüddətli məqsədlərinə və hər iki ölkənin ümumi inkişaf məqsədlərinə uyğunluğu əsasında qiymətləndirmək lazımdır. Fondun investisiyaları üçün dəqiq müəyyən edilmiş diversifikasiya strategiyası hazırlanmalı, hər hansı bir sektorda və ya aktivlər sinfində həddindən artıq konsentrasiyadan çəkinmək lazımdır. Diversifikasiya riskləri azaltmağa və uzunmüddətli gəlirləri yaxşılaşdırmağa kömək edə bilər.

Fondun fəaliyyəti suveren sərvət fondunun, yaxud da istənilən digər hökümətlərarası investisiya fondlarının idarə edilməsində ən yaxşı beynəlxalq təcrübələrlə müqayisəli olaraq davamlı inkişaf etdirmək onun effektiv idarəçiliyində mühüm amildir. İdarəetmə və performansı artırmaq üçün təcrübəli beynəlxalq və yerli məsləhətçilərlə əməkdaşlıq etmək məsləhətdir. Lakin fondun qarşısında dayanan ən əsas məsələlərdən birisi onun icra edəcəyi əməliyyatlar və ya investisiyalarla bağlı iki ölkə arasında mübahisələr və ya fikir ayrılıqları olduqda münaqişənin həlli üçün mexanizmlərin hazırlanmasıdır.

**Nəticə.** Hökümətlərarası, yaxud da müştərək fondlar investorlarının yerləşdiyi ölkədən kənarda yerləşən şirkətlərə investisiya qoyan qarşılıqlı fondlardır. Belə fondlar investorun daxili investisiyalarından kənar diversifikasiyanı təmin edir. Azərbaycan və Özbəksitan arasında yaradılan Birgə İnvestisiya Fondu ikitərəfli münasibətlərin yeni, daha intensiv və strateji əməkdaşlıq mərhələsinə qədəm qoyduğuna dair sübutu ortaya qoyur. Baxmayaraq ki, Azərbaycan üçün belə bir təcrübə hələ yenidir, mövcud ölkələrarası razılıq və qərarlar silsiləsi qanunvercilikdə də öz əksini taparaq yaxşı hüquqi baza əsasında tənzimlənəcək və qarşılıqlı iqtisadi potensialı realizə edəcək. Hal-hazırda beynəlxalq münasibətlər sistemi, yeni geosiyasi şərtlər, yeni iqtisadi dinamika həm Azərbaycan, həm də Özbəkistanın bir-biri ilə əməkdaşlıq etməsində münbit zəmin və cəzbedici investisiya iqlimi yaradır. Cari müşahidələr fondun perspektivli olduğunu, yaxın gələcəkdə real iqtisadi artım və inkiaşafa tövhə verəcəyini, Azərbaycanın Mərkəzi Asiyada öz imicini yaxşılaşdıracağını, beləliklə də Şərq ilə Qərb arasında hal-hazırda nəqliyyat və logistikanın yenidən qurulması mərhələsində öz yerini möhkəmlətməsinə yardımçı olacağına dair müsbət siqnallar ötürür. Fond Azərbaycan və Özbəkistanda ixrac potensialı yüksək olan bizneslərin yeni sənaye əməkdaşlıqları vasitəsilə bir-birinə yol tapmağında açar rol oynaya bilər.

Nəzərə almaq lazımdır ki, Özbəkistanda iqtisadiyyatın daha da liberallaşdırılması və onun açıqlığının təmin edilməsi istiqamətində işlərin sayı olduqca artırılıb. Ölkədə investisiya cəlbediciliyinin artırılması istiqamətində kompleks işlər həyata keçirilir, xüsusilə də valyuta tənzimlənməsi sahəsində prinsipial yeni yanaşmalar yenidən işlənib formalaşdırılıb, bank-maliyyə sistemi gücləndirilib, biznesin vergi yükü azaldılıb. İnvestorlar üçün, o cümlədən yeni yaradılmış azad iqtisadi zonalar daxilində əlavə güzəşt və üstünlüklərin tətbiqi ilə bağlı işlər

artırılır. Bütün bunlar Azərbaycan üçün Özbəkistanla əməkdaşlığın artırılmasına zəmin yaradır və münbit iqtisadi şərait formalaşdırır.

Azərbaycan Mərkəzi Asiyada yaranan belə əlverişli investisiya iqlimindən faydalanmaq üçün əldə etdiyi təbii sərvətlər gəlirlərini effektiv idarə edə bilər, lakin həm də öz daxilində islahatların sürətini artırmalı və qısa zaman ərzində yenidən yüksək neft və təbii qaz gəlirlərinin yarada biləcəyi monetar təzyiqləri neytrallaşdırmalıdır. Real effektiv mübadilə məzənnəsinin yenidən yüksəlməsi və yerli iqtisadiyyatda kəskin inflyasiya ilə mübarizə, fondun işinə töhvə verəcək ən vacib siyasət tədbirləri sırasına daxildir.

Fondun fəaliyyətini daha da səmərəli etmək və onun iqtisadi potensialını yüksəltmək üçün hesabatlılıq, şəffaflıq və effektiv bürokratiya yüksək əhəmiyyətə malikdir. Azəbaycan və Özbəkistan inkişaf etməkdə olan digər ölkələr kimi institusional inkişafın erkən mərhələsindədir. Bu baxımdan fondun şəffaflığı və hesabatlılığı yüksək olmalı, media ilə sıx əməkdaşlığı və eləcə də daha liberal mühitin formalaşmasındakı rolu artırılmalıdır. Son bir neçə il və fondun təşkili Azərbaycan və Özbəkistan arasındakı ikitərəfli əlaqələri yeni mərhələyə çatdırdığından, gələcək təhlil işlərinin sayının artırılması və məsələyə müxtəlif prizmalardan yanaşılmasını arzuolunan edir.

## Ədəbiyyat


1. "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə. https://e-qanun.az/framework/54190
2. APA (2023), Azərbaycan-Özbəkistan əlaqələri yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. https://apa.az/az/siyasi/azerbaycan-ozbekistan-elaqeleri-yeni-dovrun-realliqlarina-uygun-olaraq-suretle-inkisaf-etdirilir-782138
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2023), Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkələr üzrə sayı. https://stat.gov.az/source/tourism/az/002_4.xls
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2023), Ölkələr üzrə xarici ticarət əlaqələri. https://stat.gov.az/source/trade/#
5. Azvision.az. Great prospects for economic cooperation between Azerbaijan, Uzbekistan. https://en.azvision.az/news/171904/great-prospects-for-economic-cooperation-between-azerbaijan,-uzbekistan.html
6. Адилов Ф.А. (2019), Перспективы Развитие Экономические Отношений Республики Узбекистан и Азербайджан. Фундаментальные и Прикладные Исследования в Современном Мире, No.26-2, 108–112.
7. BrightUzbekistan.uz. A Joint Uzbek-Azerbaijani Investment Fund Will Be Created. https://brightuzbekistan.uz/en/a-joint-uzbek-azerbaijani-investment-fund-will-be-created/
8. Dünya Bankı. (2023), Population, total–Azerbaijan. https://data.worldbank.org/indicator/SP.POP.TOTL?locations=AZE

9. Dünya Bankı. (2023), Population, total–Uzbekistan. https://data.worldbank.org/indicator/SP.POP.TOTL?locations=UZ
10. Fərhadoğlu T. (2022), Azərbaycan, Türkiyə və Özbəkistan iqtisadiyyat, ticarət, investisiya, nəqliyyat sahəsində əməkdaşlığı müzakirə edib - ekspert şərhi. https://www.amerikaninsesi.org/a/6683556.html
11. Köstem S. (2019), Geopolitics, identity and beyond: Turkey's renewed interest in the Caucasus and Central Asia. In Turkey's Pivot to Eurasia. Routledge, 111-128. 5
12. Lee I.H., Park Y.C. (2014), Use of national currencies for trade settlement in East Asia: A proposal.
13. Manset.az. (2022), Azərbaycanla Özbəkistan birgə investisiya fondu yaradacaq. https://manset.az/index.php/news/34420/azerbaycanla-ozbekistan-birge-investisiya-fondu
14. Özbəkistanın Ticarət və Sənaye Palatası. https://chamber.uz/uz/index
15. Shagina M. (2021), Sanctions and Moscow's adaptation strategy. Russian Energy Strategy in the Asia-Pacific: Implications for Australia, 183–199.
16. Shehnaz M. (2023), Azerbaijan-Uzbekistan Investment Fund facilitating development of mutual investments, commerce turnover. https://www.businesslend.com/money/azerbaijan-uzbekistan-investment-fund-facilitating-growth-of-mutual-investments-trade-turnover/
17. Silk Road Briefing (2023), Central Bank Of Azerbaijan, Organisation of Turkic States Discuss Digital Financial Tech. https://www.silkroadbriefing.com/news/2023/06/13/central-bank-of-azerbaijan-organisation-of-turkic-states-discuss-digital-financial-tech/?fbclid=IwAR3t_ploH-paQPYo-K1broK01fNGwrWWwsNhMULWlX09Dv4xLzuajzrUsEc
18. Sumaira F.H. (2023), Azerbaijan, Uzbekistan Agree To Create Joint Investment Fund. https://www.urdupoint.com/en/world/azerbaijan-uzbekistan-agree-to-create-joint-1648778.html
19. The Heritage Foundation. (2023), Business Freedom. https://www.heritage.org/index/business-freedom
20. Turkic.world. (2023), Uzbekistan is interested in launching Azerbaijan's Zangezur Corridor. https://turkic.world/en/articles/transport/130510
21. Vergiler.az. (2023), Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması üzrə işlər davam etdirilir. https://vergiler.az/news/economy/23777.html
22. Гусейнов И., Караваев А. (2023), Зачем Азербайджан вкладывает сотни миллионов в Центральную Азию? https://haqqin.az/dictatorship/286223
23. Караваев А., Притчин С. (2019), По сути, а не по форме. Азербайджан и Узбекистан как пример нового формата интеграции. Россия в Глобальной Политике, Том.17, No.2, 175–185.